# Şəkərli diabet ən təhlükəli xəstəliklərdəndir

Hazırda bütün dünyanı ciddi narahat edən bir çox xəstəliklər mövcuddur ki, onların profilaktikası, yayılmasının qarşısının alınması, müalicəsi beynəlxalq səviyyədə düşünülür, birgə tədbirlər həyata keçirilir, xüsusi qanunlar, dövlət proqramları, layihələr,onların icra mexanizmləri işlənib hazırlanır, Bu baxımdan respublikamızda yaradılan qanunvericilik bazası müsbət hal kimi qeyd olunmalıdır. Qısa müddətdə ölkə başçısı cənab İlham Əliyevin təşəbbüsü ilə ən vacib sahələr üzrə bir sıra Dövlət Proqramları hazırlanmış və xeyli vaxtdır ki, həmin proqramlar icra olunmağa başlanmışdır. Eyni zamanda bu proqramlardan biri olan «Şəkərli diabet üzrə Dövlət Proqramı» mühüm yer tutur. Çünki indi dünyanı təşvişə salan xəstələiklərdən biri şəkərli diabetdir. Bu xəstəlik artıq qlobal problem kimi ortaya çıxmışdır. Bununla əlaqədar beynəlxalq təşkilatların fəallığının artması, səylərin birləşdirilməsi meyli gücləndirilmişdir.

Şəkərli diabetin artımı eyni zamanda onun yaratdığı tibbi, sosial, iqtisadi, psixoloji və digər problemlərlə də bağlıdır. Məhz bu baxımdan Beynəlxalq Diabet Federasiyası və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyyəsi ilə 1991-ci ildən başlayaraq hər il noyabrın 14-də Ümumdünya Diabet Günü kimi qeyd edilir. Bu günün təsis olunması həkim Frederik Bantiçin adı ilə bağlıdır. Onu da bildirək ki, 2006-cı ildə xəstəliklə bağlı Ümumdünya Səhiyyə Təşkilatı xüsusi bəyannamə qəbul etmiş və həmin sənəddə şəkərli diabet ağır xroniki xəstəlik kimi səciyyələndirilmişdir. 2007-2008-ci illər üçün Ümumdünya Diabet Günü «Heç bir uşaq diabetdən həlak olmamalıdır» şüarı altında keçirilmişdir. Bu xəstəlik hələ qədim Misirdə mövcud olub. Lakin onun yaranma səbəbləri, XIX əsrin sonunda alimlərin itlər üzərində apardıqları eksperimentlər nəticəsində aşkarlanmışdır. İtin mədəaltı vəzisi çıxardılqdan sonra onda şəkərli dtabet inkişaf etmişdir. 1985-ci ildə dünyada 30 milyon şəkərli diabetlə xəstə insan olduğu halda bu gün həmin rəqəm artaraq 200 milyondan çoxdur. Hesablamalara görə, 2025-ci ildən sonra şəkərli diabet xəstələrinin sayının 380 milyona yaxın olacağı gözlənilir. Son statistika məlumatına görə Qəbələ rayonu üzrə 1157 şəkərli diabetli xəstə rəsmi olaraq qeydə alınıb. Bir məsələni qeyd etmək lazımdır ki, şəkərli diabet xəstəliyinin gecikmiş ağırlaşmaları nəticəsində son illər ölüm faizinin yüksək olduğu mütəxəssisləri daha çox təlaşlandırır. Çünki indi alimlər tərəfindən müəyyən olunub ki, şəkərli diabet nəinki endokrin, həm də ürək, qan-damar sistemini zədələyən xəstəlikdir. Hazırda bir nömrəli problem kimi ürək, qan-damar ikinci yerdə şiş, sonra travmatologiya, dördüncü yerdə isə şəkərli diabet xəstəliyi durur. Son illərin məlumatına görə, əhalinin ümumi populyasiyası ilə müqayisədə şəkərli diabet xəstəsi olanların arasında ürək qan-damar çatışmazlığından ölüm halları 4-5 dəfə, korluq halları 10 dəfə, qanqren və aşağı ətrafların amputasiyası 50 dəfə, xroniki böyrək çatışmazlığı 5 dəfə çoxdur.

Dünyada diabet yalnız tibbi deyil, eyni zamanda ağır sosial-iqtisadi problem sayıldığı üçün xəstəliyə düçar olan şəxslər əsasən dövlət qayğısı ilə əhatə olunurlar. Azərbaycanda keçmiş sovetlər dövründə belə yardım-mexanizmi işləsə də ötən əsrin 90-cı illərində bu yardım mexanizmi demək olar ki, bütünlüklə unuduldu. 2003-cü il dekabrın 23-də MDB məkanında ilk dəfə olaraq Azərbaycanda Milli Məclis tərəfindən «Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» qanun qəbul edildi. Bununla da müstəqillik dövründə bu sahədə yeni bir mexanizmin əsası qoyuldu. Həmin proqram layihəsi bir sıra dəyişikliklərlə 2005-ci ilin iyununda Nazirlər Kabineti tərəfindən təsdiqləndi. Diabet xəstələrinin illik artım tempi nəzərə alınaraq, proqramın icrasına hər il əvvəlki illərlə müqayisədə 15 faiz artıq vəsaitin ödənilməsi qərara alınıb. Bu gün şəkərli diabet xəstələrinin 95 faizi şəkər ölcən aparatlarla, test çubuqları ilə təmin olunmuş hər bir xəstəyə kifayət qədər insulin, şəkərsalıcı həblər verilmişdir. Bu proses Qəbələ rayon mərkəzi xəstəxanası tərəfindən də mütəmadi olaraq həyata keçirilir. Bir sözlə, dövlət bu xəstələrə yardımı tam şəkildə öz üzərinə götürmüşdür. Ölkə başçısı cənab İlham Əliyevin tam nəzarəti altında olan bu iş artıq həllini tapmaq üzrədir.

Son illər Azərbaycanda şəkərli diabetlə xəstə olan insanlar, xüsusilə uşaqlar üçün mühüm işlər görülüb və bu proses davam etməkdədir. Hazırda Bakı, Şəki, Mingəçevir və Naxçıvanda endokrinoloji dispanserlər, Gəncə şəhərində poliklinika şöbəsi olan Endokrinoloji xəstəxana, həmçinin Bakıda respublika Endokrinoloji Mərkəz fəaliyyət göstərir. Qeyd edilən müəssisələrlə yanaşı, şəkərli diabetlə xəstə olanlara ambulator və stasionar yardım poliklinikaları, tibbi sanitariya hissələri, mərkəzi rayon xəstəxanaların endrokrinoloji kabinetləri və şöbələri tərəfindən də xidmət göstərilir.

Son illər bu sahədə Heydər Əliyev Fondunun fəaliyyəti xüsusilə təqdirəlayiqdir. Səhiyyə, kimsəsiz uşaqların sağlamlığının təmin olunması istiqamətində həyata keçirilən sosial layihələr içərisində «Diabetli uşaqlara ən yüksək qayğı ilə bağlı reallaşdırılan» tədbirlər cəmiyyətdə böyük rezonansa və rəğbətə səbəb olmuşdur. Hər il Heydər Əliyev Fondu humanitar aksiya keçirərək 300 nəfərə yaxın şəkərli diabet xəstəsi olan uşağa birillik pulsuz insulin, şpistlər, qlükometrlər onların test çubuqları paylayır. Çox sevindirici haldır ki, xəstələrə bu diqqət və qayğı kampaniya şəklində deyil, il ərzində müntəzəm olaraq göstərilir.

**Gülbəniz SALEHOVA,**
**həkim endokrinoloq.**

## Beynəlxalq seminar: «Bərabər iştirak üçün birgə qatıl»

Bu günlərdə «Böyük İpək Yolu» Beynəlxalq Gənclər İttifaqının «Gənclər fəaliyyətdə» proqramının dəstəyi ilə Bakıda «Bərabər iştirak üçün birgə qatıl» mövzusunda beynəlxalq seminar keçirilmişdir. Seminara Azərbaycan, Macarıstan, Rumıniya, Moldova, Yunanıstan, İtaliya, Ukrayna, Belarus, Gürcüstan, Türkiyə, Latviya, Rusiya və digər ölkələrdən 40-a yaxın gənc qatılmışdır.

Seminarın məqsədi gənc miqrantlar, sığınacaq axtaranlar, qaçqın və məcburi köçkün gənclər arasında iştirakçılığı təşviq etmək, gənc liderlərin birlik və bacarıqlarını inkişaf etdirməklə onların innovativ fəaliyyətlərinə təkan verməkdir.

Seminarda çıxışlar zamanı qeyd olunan məsələlərə kifayət qədər aydınlıq gətirilmiş, eyni zamanda gənclərə göstərilən diqqət və qayğıdan, gəncəlr siyasəti sahəsində qəbul edilən müxtəlif qanunvericilik aktlarının, dövlət proqramlarının əhəmiyyətindən danışılmışdır. Eyni zamanda tədbirdə Azərbaycan dövlətinin gənclərlə iş sahəsində apardığı siyasət müasir, intellektual, vətənpərvər, sağlam gəncliyin formalaşmasına, onların hərtərəfli inkişafına diqqət yönəldilmişdir. Daha sonra insan hüquqlarının müdafiəsi, bərabər iştirakın təşviqi, ksenofobiya və dişkriminasiya hallarına qarşı mübarizə kimi məsələlər də seminarın müzakirə mövzusu olmuşdur.

## Dərsliklər vergidən azad olacaq

Ötən həftə Milli Məclisin iqtisadi siyasət komitəsinin iclası olmuşdur. İclasda müzakirə edilən məsələlərdən biri də «Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişiklik edilməsi haqqında» qanun layihəsinə görə, ümumtəhsil müəssisələri üçün dərslik komplektləri (iş dəftəri istisna olmaqla) və uşaq ədəbiyyatının istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti vergidən azad edilməsi barədə olmuşdur.

Qanun layihəsi məqbul sayılaraq Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir.

# Respublika Gənclərinin Təlimlər Həftəsi

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə Gənclərin Maarifləndirilməsinə Kömək İctimai Birliyi regionlarda «Respublika Gənclərinin Təlimlər Həftəsi» keçirir. Birliyin fəalları ötən həftənin sonunda Qəbələdə olmuşlar. Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində keçirilən tədbiri mərkəzin direktoru Eyvaz Kazımov açmış və qonaqları salamlamışdır.

Tədbirdə peşə məktəbinin şagirdləri, fəal gənclər iştirak etmişlər.



Tədbirdə qonaqlar çıxış edərək həyata keçirilən layihənin hədəfləri və layihədə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər haqqında danışmışlar.

«Respublika Gənclərinin Təlimlər Həftəsi» layihəsi Gənclərin Maarifləndirilməsinə Kömək İctimai Birliyinin ölkə gənclərinin maarifləndirilməsində atdığı addımlardan biridir. Layihə 12 rayonu əhatə etməklə bu rayonlardakı 12 nəfər gəncin öz yaşadıqları ərazilərdəki tarixi abidələrin təqdimatı üçün çəkdikləri vidiolar vasitəçsilə 18 nəfər paytaxt gənclərinin həmin tarixi abidələrlə tanış olmasını və sair məsələləri nəzərdə tutur. Həmçinin paytaxt və region gənclərinin arasında əməkdaşlığın yaranması, ölkəmizin inkişafına töhfə verməsi, gənclərin potensialından səmərəli istifadə olunmasına şərait yaradılması layihənin başlıca məqsədlərindəndir.

Tədbirin sonu gənclər arasında müzakirə olunan məsələlərə dair geniş diskusiya ilə bitmiş və digər rayonlarda çəkilən videoçarxlar nümayiş etdirilmişdir.

**Nadir ATAKİŞİYEV.**
**Foto Səhrab Umuyevindir.**